Gəzdim, gördüm, sevdim səni, Azərbaycan!

“Ölkəmizi tanıyaq!” beşinci tur-aksiyasına start verildi

Xətai rayonu

Azərbaycan Prezidenti İlham Əliyevin tövsiyəsinə əsasən respublikanın ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdləri üçün təşkil edilən “Ölkəmizi tanıyaq” tur-aksiyasının beşinci ilinə Xətai rayon məktəbliləri “Gəzdim, gördüm, sevdim səni, Azərbaycan!” devizi ilə başlayırlar.

Rayonun orta ümumtəhsil məktəblərində tətil mövsümlərinə düşən tur-aksiyalara hazırlıq işlərini daim şəxsi nəzarətdə saxlayan Xətai Rayon İcra Hakimiyyətinin başçısı Razim Məmmədov gərgin iş qarfikinə baxmayaraq, əvvəl 40-a yaxın məktəblini səfər öncəsi görüşə dəvət etmişdi. Noyabrın 14-də isə aparatın bütün kollektivi ilə onları yola salmağa gəlmişdilər.

Səhərin gözü açılandan tur-aksiya iştirakçıları Xətai rayonundakı Heydər Parkına toplaşmışdılar. Sevinclərini gizlədə bilməyən məktəblilər əvvəlcə rayon rəhbərliyi və qonaqlarla birlikdə ulu öndərin abidəsini ehtiramla ziyarət edib önünə tər-çiçək dəstələri qoydular.

Yolasalma mərasimini açan icra hakimiyyəti başçısının müavini Jalə Abdiyeva məlumat verdi ki, Azərbaycan Prezidenti İlham Əliyevin tövsiyəsi ilə 2013-cü il avqustun birindən start götürən layihə üzrə beş ildə iki dəfə olmaqla 7 istiqamətdə 9 tur-aksiya təşkil edilib. Ölkəmizin bütün bölgələrinin əhatə edildiyi bu tur-aksiyalarda, ümumilikdə, 20 min 254 məktəbli iştirak edib. 14-17 və 18-21 noyabr tarixlərini əhatə edəcək növbəti 10-cu tur-aksiyada isə 4 istiqamət üzrə 76 şəhər və rayondan, o cümlədən məcburi köçkün rayonlarından, ümumilikdə, 3 min 190 məktəbli iştirak edəcək.

Natiq bildirdi ki, Xətai rayonundan da bu tur-aksiyalarda indiyə qədər 282 məktəbli iştirak edib və 40 məktəblimiz də bu gün növbəti tur-aksiyaya yola düşəcək.

Çıxışına məktəblilərə uğurlu səyahət arzuları ilə başlayan rayon icra hakimiyyətinin başçısı Razim Məmmədov qeyd etdi ki, dövlət başçısının tövsiyəsi ilə həyata keçirilən bu layihənin gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi baxımından müstəsna əhəmiyyəti var. Bu tədbir xalqımızın gələcək nəsillərinin daha sıx birləşməsinə, Vətəni daha böyük şövqlə sevməyə, xalqımızın əsrlərlə əldə etdiyi milli-mənəvi dəyərlərə, yaratdığı tarixi abidələrə, bu günə çatdırdığı adət-ənənələrə daha böyük qayğı və ehtiramla yanaşmağa sövq edəcək.

R.Məmmədov həmçinin bildirdi ki, müstəqil Azərbaycan son 25 ildə möhtəşəm tarixi inkişaf yolu keçmişdir. Ölkəmizin tərəqqisi və inkişafı təkcə paytaxt Bakının simasında deyil, bölgələrimizin timsalında da özünü parlaq şəkildə göstərir. Bu gün məktəblilərimiz öz iqtisadi inkişafı ilə ölkə iqtisadiyyatında mühüm yerlərdən birini tutan Lənkəran, Masallı və Astara rayonlarına səfər edəcəklər. İnanıram ki, məktəblilərimiz bu səfərdən də zəngin təəssüratla qayıdacaqlar.

Görüş iştirakçılarına məlumat verildi ki, Lənkəran-Masallı-Astara rayonlarına səfər edəcək məktəblilər regionda tarixi məkanlarla, yeni tikililərlə yaxından tanış olacaqlar. Lənkəranda “Qoşa qala” qapılarına, Həzi Aslanovun ev-muzeyinə, Dairəvi qalaya, Mayak binasına, Hirkan Milli Parkına, Xanbulan gölünə, çay plantasiyalarına, sitrus meyvə bağlarına, Astarada şəhər bulvarına, “Yanar bulağ”a və “Astaraçay” çay fabrikinə, Masallıda Tarix-Diyarşünaslıq Muzeyinə, Uşaq İncəsənət Məktəbinə, Dövlət Rəmzləri Muzeyinə, “ASAN Həyat” kompleksinə, Masallı Sənaye Məhəlləsinə və Viləşçay su anbarına ekskursiya şagirdlərin yaddaşında silinməz iz qoyacaq.

Bir qədər sonra rayonun gənc incəsənət ustaları, rəqs qrupları, musiqiçilər öz ritmik musiqi nömrələri ilə bayramsayağı bəzədilmiş parka əsl şənlik havası qatdılar. Xətai Rayon İcra Hakimiyyətinin başçısı Razim Məmmədov, Milli Məclisin deputatı Hüseynbala Mirələmov, rayon polis idarəsinin rəisi, polis polkovniki Muradəli Babayev, icra hakimiyyəti aparatının məsul şəxsləri və məktəb direktorları meydandakı bu qələbəliyi maraqla seyr edir, məktəbli ikən yaddaşlarına yazılmış şirin xatirələri bölüşüb gülürdülər.

Qara zurnanın ruhu coşduran “Cəngi” sədaları bir andaca meydanı hərəkətə gətirdi. Vaxtilə el ərənlərini qəhrəmanlığa, Vətəni qorumağa səsləyən, əsrlərə şahid olan melodiya indi bu meydanda ölkənin gələcək nəsillərini xoş bir məramla səyahətə çıxmağa səfərbər edirdi. Bir azdan hamı qol-qola verib “Yallı” getməyə başladı.

Bir az sonra 40 məktəbli gəncin ömrünə ən şirin xatirə kimi həmişəlik yazılacaq səfərə yola düşmək məqamı çatdı. Şagirdlər qrup rəhbərinin göstərişi ilə onlar üçün ayrılmış avtobusda yerlərini tutdular. Dövlət yol polisi avtomobilinin müşayiət etdiyi avtobus gənclərin şaqraq nəğmə sədaları altında cənub bölgəsinin qədim Lənkəran şəhərinə yola düşdü.

Nizami rayonu

Nizami Rayon İcra Hakimiyyətində “Ölkəmizi tanıyaq!” tur-aksiyasında iştirak edəcək məktəblilərin yola salınması ilə əlaqədar keçirilən tədbiri giriş sözü ilə açan icra hakimiyyətinin başçısı Arif Qasımov bildirdi ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, artıq beşinci ildir ki, Azərbaycanın orta ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdlərinin Vətənimizin müxtəlif bölgələrinə maarifləndirici tur-aksiyaları təşkil olunur. Prezident Administrasiyasının təşkilatçılığı ilə keçirilən tur-aksiyalar artıq ənənə halını alıb.

Qeyd olundu ki, 4 il ərzində Nizami rayonunun məktəbliləri Naxçıvan şəhərində, Şamaxı–İsmayıllı–Qəbələ və Lənkəran–Masallı–Astara istiqamətləri üzrə şəhər və rayonlara səfər etmiş, həmin yerlərin tarixi-mədəni abidələri, görməli yerləri ilə tanış olmuş və zəngin təəssüratlarla geri qayıtmışlar. Növbəti – beçinci tur-aksiyanın Gəncə–Şəmkir–Göygöl istiqaməti üzrə təşkil edilidiyini diqqətə çatdıran A.Qasımov belə tədbirlərin şagirdlərin dünyagörüşünün formalaşmasında böyük rol oynadığını bildirdi. Aksiya iştirakçıları, eyni zamanda, bölgələrimizin adət-ənənələrini öyrənir, yeni dostlar qazanır və regionlarımız haqqında əhatəli biliyə malik olurlar. Bu, həm də dövlətimizin gənclərə göstərdiyi növbəti qayğının bariz nümunəsidir.

Rayon icra hakimiyyəti başçısının müavini Gülzar İsrafilova çıxışında bildirdi ki, həmişə olduğu kimi, bu dəfə də məktəblilər arasında biliyi və istedadı ilə seçilən 40 nümunəvi şagird noyabrın 14-dən 17-dək Gəncə, Şəmkir və Göygöldə tarix-diyarşünaslıq muzeyləri, Heydər Əliyev mərkəzləri ilə tanış olacaq, Nizami Gəncəvinin, Cavad xanın məqbərələrini, Şah Abbas məscidini, “İmamzadə” kompleksini, “Comərd Qəssab” türbəsini ziyarət edəcəklər. Həmçinin şagirdlərin Gəncə Dövlət Filarmoniyasının yeni binasına və Gəncə bulvarına, Şəmkir rayonunda “Orta əsr Şəmkir şəhəri”nə, “Abidələr” parkına, Alman kilsəsinə, Şəmkir Aqroparkına, Göygöl rayonunda Alman kirxasına, sonuncu alman Viktor Klaynın ev-muzeyinə, Hacıkənd qəsəbəsinə və Göygöl Milli Parkına ekskursiyaları təşkil ediləcək.

Bu səfərin şagirdlər üçün çox maraqlı olacağını bildirən G.İsrafilova məktəblilərin bölgədəki genişmiqyaslı quruculuq işləri, maddi-mənəvi irsin qorunması və bərpası istiqamətində həyata keçirilən önəmli sosial layihələr, həmçinin 200 il əvvəl salınan alman məskənləri ilə də tanış olacaqlarını diqqətə çatdırdı.

Sonra şagirdlər ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzdülər və təntənəli şəkildə yola salındılar.

Nəsimi rayonu

Paytaxtın Nəsimi rayonunun bir qrup məktəblisi də “Ölkəmizi tanıyaq” tur-aksiyasına qoşulmuşdur. Ümumrespublika aksiyasına yola salınan şagirdlərlə Nəsimi Rayon İcra Hakimiyyətində keçirilən görüşdə Prezident İlham Əliyevin tapşırığına əsasən məktəbli tətilləri günlərində təşkil olunan ənənəvi maarifləndirici səfərlərin yeni nəslin doğma yurdun hər bucağına bələdlik və sevgi ruhunda tərbiyəsinə oynadığı önəmli rol vurğulanmışdır.

Məktəb rəhbərlərinin, valideynlərin və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən görüşdə çıxış edən Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov şagirdlərə turun məfkurəvi məramı barədə məlumat vermiş, ölkə rəhbərliyinin uşaq və yeniyetmələrin savadlı, vətənpərvər, sağlam böyüməsi ilə bağlı həyata keçirdiyi davamlı tədbirlərdən danışmış, bölgələrə təşkil olunan məktəbli turlarının da bilavasitə Prezident İlham Əliyevin təşəbbüsü və qayğısı ilə gerçəkləşdirildiyini qeyd etmişdir. Rayon rəhbəri bildirmişdir ki, bu səfərlər ölkə başçısının qətiyyəti və iradəsi ilə gündən-günə abadlaşan regionların keçmişi və yeniləşən siması ilə məktəblilərin yaxından tanış olmasına geniş imkanlar yaradır, təsirli təəssürat doğurur.

Bildirilmişdir ki, rayonda bu önəmli tədbirə ciddi hazırlıq aparılmış, onun uğurlu keçməsi üçün bütün zəruri işlər yüksək səviyyədə başa çatdırılmışdır. Aksiyada iştirak üçün rayonun orta məktəblərinin təhsildə və davranışda nümunəviliyi, ictimai işlərdə fəallığı ilə fərqlənən 40 şagird seçilmişdir. Rayon icra hakimiyyətində yaradılmış qərargah səfərin gedişini nəzarətdə saxlayacaq, onun uğurla başa çatmasını təmin edəcək. Səfər günlərində nəsimili məktəblilərin Gəncə şəhərinin, Göygöl və Şəmkir rayonlarının tarixi məkanlarına, görməli yerlərinə, müasir istehsal, xidmət

və mədəniyyət obyektlərinə ekskursiyaları, Heydər Əliyev və Gənclər mərkəzlərində, təhsil və mədəni-maarif ocaqlarında gəncəlilərlə görüşləri təşkil olunacaq.

Şagirdlər bölgələrimizin zəngin turizm potensialı, tarixi-mədəni abidələri, muzeyləri ilə tanış olmaq baxımından maarifləndirici turların əhəmiyyətindən danışmış, valideynlər övladlarına göstərilən diqqət və qayğıya görə ölkə başçısı İlham Əliyevə dərin minnətdarlıqlarını bildirmişlər.

Görüş rayon məktəblilərinin hazırladığı vətənpərvərlik kompozisiyası ilə başa çatmışdır.

Yola düşməzdən əvvəl məktəblilər Vaqif prospektindəki yaşıllıq zolağında həmişəyaşıl ağaclar əkmiş, ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək ulu öndərə dərin ehtiramlarını bildirmişlər. Nəsimili uşaqlar yol polisinin müşayəti ilə xüsusi avtobusla Gəncəyə yola düşmüşlər.

Yasamal rayonu

Noyabrın 14-də Yasamal rayon orta ümumtəhsil məktəblərinin IX-XI siniflərində təhsil alan 40 şagird “Ölkəmizi tanıyaq” tur-aksiyası çərçivəsində Gəncə şəhərinə yola düşmək üçün Yasamal rayon Heydər Əliyev Mərkəzinə toplaşıblar.

Yasamal Rayon İcra Hakimiyyətindən bildirilib ki, əvvəlcə tədbir iştirakçıları Heydər Əliyev Mərkəzində ulu öndərin abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar.

Sonra Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

Tədbirdə çıxış edən Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov deyib ki, artıq beşinci ildir Azərbaycanın orta ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdlərinin “Ölkəmizi tanıyaq” devizi altında Vətənimizin müxtəlif bölgələrinə maarifləndirici tur-aksiyaları təşkil olunur. Dövlətimizin başçısı İlham Əliyevin tövsiyəsinə əsasən, Prezident Administrasiyasının təşkilatçılığı ilə keçirilən tur-aksiyalar gözəl ənənə halı alıb. Bu layihənin əsas məqsədi şagirdləri ölkəmizin müxtəlif bölgələrinin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri, ümummilli lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın nailiyyətləri ilə yaxından tanış etmək, Prezident İlham Əliyevin qətiyyəti və iradəsi ilə respublikamızın dinamik sosial-iqtisadi inkişafı, gündən-günə abadlaşan şəhər və rayonlarımızın yeniləşən siması barədə gənclərdə əyani təsəvvür yaratmaqdır.

İcra başçısı qeyd edib ki, bu il noyabrın 14-dən 17-dək və 18-dən 21-dək keçirilən növbəti - 10-cu tur-aksiyada 4 istiqamət üzrə 76 şəhər və rayondan, o cümlədən məcburi köçkün rayonlarından, ümumilikdə, 3190 nəfər iştirak edəcək. Bununla da, “Ölkəmizi tanıyaq” tur-aksiyalarında iştirak edən məktəblilərin sayı 23444 nəfərə çatır.

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən “Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində bu gün Yasamal rayonundan olan 40 məktəbli Gəncə-Şəmkir-Göygöl istiqaməti üzrə yola düşərək tarixi məkanlarla, yeni tikililərlə yaxından tanış ola biləcəklər.

“Ölkəmizi tanıyaq” maarifləndirici tur-aksiyasına qatılan şagirdlərin təntənəli yolasalmasında valideynlər, müharibə və əmək veteranları, müəssisə və təşkilat rəhbərləri və rayon ictimaiyyəti iştirak ediblər.

Şagirdlər, müəllimlər, valideynlər bu şəraiti yaratdığı üçün dövlətimizin başçısı İlham Əliyevə minnətdarlıqlarını bildirdilər.

Tədbirdə Yasamal rayon 22 saylı Musiqi Məktəbinin, İncəsənət Gimnaziyasının və 4 saylı Uşaq-Gənclər İnkişaf Mərkəzinin şagirdləri bədii kompozisiyalarla çıxış ediblər.

Sonra Yasamal Rayon İcra Hakimiyyəti tərəfindən 40 nəfərlik tur-aksiya iştirakçılarına xatirə hədiyyələri verilib və iştirakçılar onlar üçün ayrılan xüsusi avtobusla Gəncə şəhərinə yola salınıblar.

Qazax rayonu

Respublikamızın ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdlərinin iştirakı ilə reallaşdırılan “Ölkəmizi tanıyaq” tur-aksiyasına qazaxlı məktəblilər də qoşulublar.

“Ölkəmizi tanıyaq” tur-aksiyasında iştirak edən 40 məktəbli və təhkim olunmuş şəxslər rayondakı Heydər Əliyev parkına toplaşmışdılar.

Məktəblilərin yolasalma mərasimində Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, aparatın məsul şəxsləri, rayon təhsil şöbəsinin əməkdaşları, məktəb

direktorları, müəllimlər və valideynlər iştirak ediblər.

Əvvəlcə rayon rəhbərliyi, məktəblilər və müəllimlər ulu öndər Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri qoyaraq, ümummilli liderin əziz xatirəsini anıblar.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, müavin Gülayə Həsənova, rayon təhsil şöbəsinin müdiri Nizaməddin Babanlı çıxış edərək, məktəblilərə xoş istirahət arzulayıblar. Bildirilib ki, rayonun müxtəlif məktəblərindən olan 40 şagird birinci mərhələdə - noyabrın 14-dən 17-dək Lənkəran–Masallı-Astara rayonlarının gəzməli, görməli, tarixi yerlərinə səfər edəcək, bölgə ilə yaxından tanış olacaq, rayonların sosial, iqtisadi və mədəni həyatı barədə məlumatlar alacaqlar. Tur-aksiya çərçivəsində şagirdlər intellektual oyunlarda da iştirak edəcəklər.

Məktəblilər və valideynlər maarifləndirici tur-aksiyanın təşkilinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Sonda tur-aksiya iştirakçıları cənub bölgəsinə yola düşüblər.

Beyləqan rayonu

“Ölkəmizi tanıyaq” maarifləndirici tur-aksiyasına qoşulan beyləqanlı məktəblilər Quba-Qusar-Xaçmaz istiqamətində yola çıxıblar.

Beyləqan şəhərindəki Heydər Əliyev Mərkəzində keçirilən görüşdə rayon icra hakimiyyətinin və təhsil şöbəsinin nümayəndələri, valideynlər iştirak ediblər.

Çıxış edənlər aksiyanın əhəmiyyətini yüksək qiymətləndirərək, məktəblilərə səfərlərinin xoş və mənalı keçməsi üçün tövsiyələrini veriblər. Qeyd edilib ki, tur-aksiyada iştirak edən 40 şagird, həmçinin müşayiətçi müəllimlər və 1 həkimdən ibarət heyət dörd gün ərzində Quba, Qusar və Xaçmaz rayonlarının tarix və mədəniyyət abidələri, gözəl təbiət mənzərələri ilə yaxından tanış olacaqlar. Məktəblilərin şimal bölgəsi ilə tanışlığı maraqlı keçəcək və onlar zəngin təəssüratla geri dönəcəklər.

Görüşdən sonra tur-aksiyada iştirak edəcək şagird və müşayiətçilər avtobusla Quba-Qusar-Xaçmaz istiqamətində yola düşüblər.

Ağdam rayonu

“Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiyaya qoşulan Ağdam rayonunun məktəbliləri Quba-Qusar-Xaçmaz marşrutu üzrə ekskursiyaya çıxıblar.

Yola düşməzdən əvvəl məktəblilərlə keçirilən görüşdə Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov çıxış edərək, layihənin yeniyetmə və

gənclərin dünyagörüşünün formalaşmasında, biliklərinin artırılmasında, vətənpərvərlik tərbiyəsinin daha da yüksəldilməsində mühüm rol oynadığını vurğulayıb. Bildirib ki, artıq beşinci ildir Azərbaycanın orta ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdlərinin “Ölkəmizi tanıyaq” devizi altında Vətənimizin müxtəlif bölgələrinə maarifləndirici tur-aksiyaları təşkil olunur. Noyabrın 14-17 və 18-21 tarixlərini əhatə edəcək növbəti 10-cu tur-aksiyada 4 istiqamət üzrə 76 şəhər və rayondan, o cümlədən məcburi köçkün rayonlarından, ümumilikdə, 3190 nəfər iştirak edəcək.

Diqqətə çatdırılıb ki, Ağdam rayon məktəblilərini 4 gün ərzində ölkəmizin şimal rayonlarında maraqlı ekskursiyalar gözləyir. Onlar Quba rayonunda Cümə məscidi, Qırmızı Qəsəbə, Quba soyqırımı Memorial kompleksi, “Azərxalça” ASC-nin Quba filialı, “ABAD Factory” İstehsalat Kompleksi, Tağlı Körpü ilə tanış olacaq, Qusar

rayonunun Həzrə kəndindəki “Şeyx Cüneyd” türbəsinə və “Şahdağ” Turizm Mərkəzinə, Xaçmaz rayonunda isə Heydər Əliyev Mərkəzi, Xalça Muzeyi, Dövlət Rəsm Qalereyası, “Şəxsiyyətlər Muzeyi”, Çənlibel parkına və “Şabran Şəhəri” Tarix Qoruğuna ekskursiya edəcəklər.

Quzanlı qəsəbəsində Heydər Əliyev Mərkəzinin qarşısında keçirilən yolasalma mərasimində rayon icra hakimiyyətinin, təhsil şöbəsinin işçiləri və valideynlər məktəblilərə tövsiyələrini verərək, “yaxşı yol” arzulayıblar.

Tur-aksiyada iştirak edən şagirdlər avtobusla Quba-Qusar-Xaçmaz istiqamətində yola çıxıblar.

Naftalan rayonu

“Ölkəmizi tanıyaq” tur-aksiyası çərçivəsində Naftalan məktəbliləri şimal bölgəsinə yola düşüblər.

Naftalan Şəhər İcra Hakimiyyətində şəhər rəhbərliyinin, təhsil işçilərinin və valideynlərin iştirakı ilə tur-aksiya iştirakçılarının, eləcə də onları müşayiət edən qrup rəhbərləri və müəllimlərin Quba-Qusar-Xaçmaz istiqaməti üzrə yolasalma mərasimi keçirilib.

Tədbirdə çıxış edən Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Rövşən İbrahimov şagirdlərə tur-aksiyanın məqsədi barədə məlumat verib. Prezident İlham Əliyevin gənc nəslin tərbiyəsi, onların savadlı, vətənpərvər böyüməsi və fiziki inkişafı istiqamətində gördüyü işlərdən danışan Rövşən İbrahimov bu kimi turların təşkilinin həmin tədbirlər çərçivəsində həyata keçirildiyini vurğulayıb.

Qeyd edilib ki, “Ölkəmizi tanıyaq” tur-aksiyası üçün şəhərin ümumtəhsil məktəblərində təhsil alan, öz təhsili və nümunəviliyi, ictimai həyatda fəallığı ilə fərqlənən 19 şagird seçilib. Şəhər icra hakimiyyəti tərəfindən qrupa rəhbər təyin olunub, şagirdləri müşayiət edəcək müəllim və həkim heyəti müəyyənləşdirilib.

İştirakçılar tur-aksiya çərçivəsində Quba rayonunda Cümə məscidi, Quba Soyqırımı Memorial Kompleksi, xalçaçılıq emalatxanası, Tağlı körpü, qolf meydançası ilə tanış olacaq, Qırmızı qəsəbəyə, Xınalıq yolundakı şələləyə, Qusar rayonunun Həzrə kəndindəki “Şeyx Cüneyd” türbəsinə və “Şahdağ” Turizm Mərkəzinə, Xaçmaz rayonunda isə Xalça muzeyinə, Şəxsiyyətlər muzeyinə və Çənlibel parkına ekskursiya edəcəklər.

Görüşdə çıxış edən valideynlər və müəllimlər məktəblilərə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Sonda ulu öndər Heydər Əliyevin abidəsi qarşısına tər gül-çiçək dəstələri düzən şagirdlər xüsusi avtobusla Quba rayonuna yola düşüblər.

Lerik rayonu

Dünən Lerik şəhərindəki Heydər Əliyev meydanında təhsildə fərqlənən bir qrup məktəblinin “Ölkəmizi tanıyaq” layihəsi çərçivəsində Gəncə, Şəmkir və Göygöl rayonlarına təntənəli yolasalma mərasimi keçirilib.

Lerik rayonunun ümumtəhsil məktəblərinin 40 nəfər fəal yuxarı sinif şagirdi və onları müşayiət edən müəllimlər dörd gün ərzində tur-aksiyanın proqramına uyğun olaraq səyahət edəcək, marşrut üzrə tarix və mədəniyyət abidələri, görməli yerlər, sosial-iqtisadi inkişaf sahəsində qazanılan nailiyyətlərlə yaxından tanış olacaq, müxtəlif tədbirlərdə iştirak edəcəklər.

Mərasim iştirakçıları öncə Heydər Əliyev meydanında ümummilli liderin abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyublar. Rayon icra hakimiyyəti başçısının müavini Arzu Vəliməmmədova bildirib ki, Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində qəbul edilmiş müxtəlif dövlət proqramlarının icrası ilə əlaqədar uşaqların, yeniyetmə və gənclərin hərtərəfli inkişafına xidmət edən müxtəlif layihələr həyata keçirilir.

Məktəblilərin tətil günlərində “Ölkəmizi tanıyaq” layihəsi üzrə respublikanın müxtəlif bölgələrinə tur-aksiyaların təşkili də bu sıradandır. Bu istiqamətdə Lerik rayonunda görülən işlər barədə danışan natiq məktəblilərə tövsiyələrini bildirib və yaxşı yol arzulayıb.

Çıxışlarda məktəblilərin ölkəmizi daha yaxından tanıması üçün yaradılan şəraitə görə dövlət başçısına minnətdarlıq duyğuları ifadə olunub.

İlqar RÜSTƏMOV,
Əliqismət BƏDƏLOV,
Tahir AYDINOĞLU,
Əli NƏCƏFXANLI,
“Xalq qəzeti”, AZƏRTAC